

# QƏZA

Hekayə

*Zakir Bağır*

Bu şəhərdə banklar, şadlıq evləri və mehmanxanalar çoxdur. Bir-birinin yanında 4-5 bank vardır. Şadlıq evlərinin, mehmanxanaların sayı da getgedə artır. Şəhərin mərkəzində 4 yolda kiçik torpaq sahəsi vardır. Arxada uşaq bağçası - Körpələr evi fəaliyyət göstərirdi. 1 mərtəbəli uşaq bağçasının həyəti kiçik olsa da orada meyvə ağacları əkilmişdir. Uşaqların oynaması üçün əyləncələr quraşdırılmışdır. Sağ tərəfdə beşmərtəbəli yaşayış evi tikilmişdir. Beşmərtəbəli binanın birinci mərtəbəsində Qeydlər şöbəsi, Reyestr Xidməti, Xarici dillər kursu, bir bankın filialı və iki gözəllik salonu fəaliyyət göstərirdi.

4 yolun ikisi maşınlar üçün, iki yolu isə piyadalar üçün idi. Piyadalar üçün yollar metlax düzülmüşdür. Hər iki tərəfdən nadir ağaclar əkilmişdir. Bura xiyaban adlanırdı.

Bağçaya gedən uşaqların çoxu 5 mərtəbəli evin sakinlərinin övladları idi.

Günlərin bir günü bu kiçik torpaq sahəsində əkilmiş nadir ağaclar kəsildi. Sonra qazıntı aparıldı. Deyilənə görə, burada mehmanxana tikiləcəkdir. Beşmərtəbəli binanın sakinləri narazılıq etdilər. Amma onlara fikir verən olmadı. Bünövrə qoyuldu və tikinti başlanıldı.

Mehmanxana 3 mərtəbəli idi. Birinci mərtəbədə şənlik üçün zal, qadın gözəllik salonu, kafe, mətbəx və qazanxana tikilmişdir. 2 və 3-cü mərtəbələr isə qonaqlar üçün nəzərdə tutulmuşdur. Mehmanxananın divarları 5 mərtəbəli evin divarlarına yapışmışdır. Sakinlər təmiz havaya həsrət idilər. Pəncərəni açan kimi qazanxananın tüstüsü otaqlara dolurdu.

Mehmanxananın qaz xətti uşaq bağçası - körpələr evinin həyətindən çəkilmişdir. Bunun üçün bağçanın həyətindəki ağaclar kəsilmiş, uşaqların oynaması üçün qoyulmuş əyləncələr dağılmışdır. İndi bağçada uşaqların oynaması üçün heç bir şərait yox idi.

Valideynlər uşaqlarını bağçadan çıxardırdılar. Bağça bağlandı.

Beş mərtəbəli binanın mehmanxanaya tərəf yaşayan sakinlərinin bir çoxu evlərini satmış, bir çoxları isə qohum-əqrəbalarının evlərinə köçmüşdülər.

Yəhya müəllim 5-ci mərtəbədə yaşayırdı. Qonşuları kimi o da pəncərəni aça bilmirdi, tüstü otaqlara dolurdu.

Uşaq bağçası bağlanandan sonra nəvələrini qayınanası saxlayırdı. Qayınatası avtomobil qəzası zamanı həlak olmuşdur. Qayınanası ömrünü uşaqlara həsr etmişdir. Uzun müddət bağçada işləmişdir. Sıravi tərbiyəçidən bağça müdirəsinə kimi işləmişdir. Bir müddət rayon təhsil şöbəsində metodist olmuşdur. Şəhərdən kənarda yaşayan qayınanası nəvələrini çox istəyirdi. Elə nəvələri də ondan ayrılmaq istəmirdilər. Babaları hər ikisi üçün velosiped almışdır. Amma nəvələri təzə-təzə yeriməyə başladıqları üçün velosipedi sürə bilmirdilər. İndi böyümüşdülər. Velosipedi rahatlıqla sürürdülər. Uşaqlarda nənəgildə olanda özlərinə çoxlu dost tapmışdılar. Nənə həyət evində yaşayırdı. Havalar isti keçəndə uşaqlar bütün günü həyətdə oynayırdılar. Çay-çörəklərini də burada içib, yeyirdilər.

Qayınanası deyirdi:

- Müəllim (qayınanası kürəkəninə belə müraciət edirdi), adam burada boğulur, köçün bizə.

Yəhya müəllimisə qayınanasıgilə köçmək istəmirdi. Həyat yoldaşının və özünün dərs dediyi məktəb yaxınlığında yerləşirdi, 5-10 dəqiqəlik yol idi. Bir də şəhərdə qayınanagildə yaşayan kürəkənə pis baxırlar.

Şübhəsiz təqaüdçü qayınana bunları yaxşı bilirdi.

- Müəllim, deyilənlərə niyə qulaq asısan? Sənə deyilənlər lazımdır, yoxsa sağlamlıq?

Yəhya müəllim bildirdi:

- Müəllimə (o qayınanasına belə müraciət edirdi), işlədiyimiz məktəb bizə uzaq olacaq.

- Müəllim, şəhərə dairəvi avtobuslar işləyir. Onsuz da bu binada yaşayanların çoxu köçüb. İndi onların iş yeri uzaq deyil?

- Nə deyirəm ki...

Yəhya müəllim qayınanasıgilə köçdü.

... Mehmanxana sahibi Xudayar Xudayarbəylinin oğlu təzə evlənmişdir. Dünyaya gələn körpə çox zəif idi. Həkimlərin biri Xudayar Xudayarbəyliyə demişdir: "Mən bir ay bu şəhərdə dincəlmişəm, havasına, suyuna söz ola bilməz. Oğlun qoy köçsün bu şəhərə".

Onsuz da mehmanxanaya rəhbərik oğluna tapşırmışdır. Mehmanxana sahibi Yəhya müəllimin evini oğlu üçün aldı.

Bu şəhərdə tez-tez qaz və işıq sönürdü. İşıq bəzən elə gur yanır ki, gözləri qamaşdırır, bəzən də elə zəif yanır şam işığı ondan güclü olurdu. Bir çox məişət əşyaları sıradan çıxır.

... O gün möhkəm yağış yağırdı. İldırım çaxırdı. İşığı söndürmüşdülər. Gecənin yarısına kimi işıq yanmadı. Gecənin yarısından keçmişdi. Əhali şirin yuxuya getmişdi. İşıq yandı. Çox gur yanırdı, işıq. Partlayış səsi eşidildi, işıq söndü. Şəhərin mərkəzindəki mehmanxanada yanğın baş vermişdi. Yanğın beşmərtəbəli binaya da keçmişdir. Təcili yanğın söndürən idarəyə, qaz istismar müəssisəsinə zəng vuruldu. Qazı söndürdülər, amma bu yanğının qarşısını almadı. Yanğınsöndürənlər qəzanı qaranlıqda qarşısını ala bilmirdilər. Mehmanxananın çöl divarlarına vurulmuş üzlüklər yanğın daha da sürətləndirirdi. Elə bil bu üzlükləri benzindən düzəltmişdilər. Yeganə çarə yanğınsöndürən maşınlar xiyabana girib yanğını söndürməli idi. Piyadalar üçün nəzərdə tutulmuş bu xiyabana metlaxlar vurulmuşdu. Xiyabanın qıraqlarında nadir ağaclar əkilmişdir. Bu nadir ağaclar kəsilməlidir. Metlaxlar yanğın söndürənlərin təsirinə dözəcəkmi?? Gecənin bu yarısında bunları görmək çox çətin idi.

... Artıq şəhər açılırdı. Havalar işıqlanırdı. Şəhərin mərkəzində ki, mehmanxana, beşmərtəbəli binanın qabağı mühasirəyə alınmışdır. Burada çoxlu adamlar var idi. Xudayar Xudayarbəyli də burada idi. Kimsə hirslə mehmanxanaya vurulmuş üzlükləri göstərdi və Xudayar bəylidən nə isə soruşdu.

Daşdan səs çıxdı, ondan yox.

Bayaq ki, sual verən ətrafındakı adamlara nə isə dedi. Ətrafdakılar da onun sözünü təsdiq etdilər. Kimsə qoltuğundakı papkanı açdı, içəridən xeyli kağız çıxardıb Xudayar Xudayarbəyliyə imzalamaq üçün verdi.

Fəhlələr işə başladılar. Nadir ağaclar kəsildi. Yanğın söndürən maşınlar xiyabana daxil oldular.

Mehmanxananı söndürmək qeyri-mümkün idi. Xoşbəxtlikdən mehmanxanada heç kim yox idi. Axırıncı qonaqlar 2-3 gün bundan qabaq getmişdilər. Üzlüklər daha da alovlandırırdı. Yanğınsöndürənlər 5 mərtəbəli binanın yanan tərəfini söndürməyə başladılar. Yaxşı ki, alov binanı tam əhatə etməmişdir. Günortadan xeyli keçmiş yanğın söndürüldü. Blokun bir hissəsi - mehmanxanaya tərəf hissəsi tamamilə yanmışdır. Bu hissənin birinci mərtəbəsində yerləşən Qeydlər şöbəsinin və reyestr Xidmətinin bütün sənədləri yanıb kül olmuşdur. Xiyabanda vurulmuş metlaxlar yanğın söndürən maşınların təsirinə dözməyərək sınıq-salxım olmuşdur.

Xudayar Xudayarbəyli təcili öz vəsaiti ilə mehmanxananı tamamilə sökməli, beşmərtəbəli binanın yanan hissəsini tikdirməli, xiyabana təzə metlax düzməli, həmişəyaşıl ağaclar əkməli, bağçanın həyətindəki uşaqların oynaması üçün təzə əyləncələr qoymalı, ağaclar əkməli idi.

Xudayar Xudayarbəyli yaxşı bilirdi ki, bununla iş bitməz. Daha onu nələr gözləyir, aydın idi.

Xilaskarlar yanmış evdən 3 meyit çıxartdılar. Biri Xudayar Xudayarbəylinin yeganə oğlunun, ikincisi gəlinin, üçüncüsü nəvəsinin yanmış cəsədləri idi.

**LƏNKƏRAN**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100